DOI:10.30546/gdu.2023.246-250

**UOT: 82**

# MƏHƏMMƏD FÜZULİNİN YARADICILIĞINDA TƏBİƏT LİRİKASININ POETİK XÜSUSİYYƏTLƏRİ

***Doktorant Vəliyeva Ceyran Elşən qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Azərbaycan klassik ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, şeiriyyatı ilə ədəbiyyatımızı üç yüz ildən çox öz təsiri altında saxlamağı bacaran, böyük ədəbi məktəb yaradan dahi sənətkar Məhəmməd Füzuli yaradıcılığında təbiətin əsrarəngiz xüsusiyyətləri özünəməxsus boyalarla qələmə alınmışdır. Şair müxtəlif şeir janrlarında müxtəlif formalardan istifadə edərək təbiəti təsvir etmişdir. Əvvəla, qeyd edək ki, Füzuli dövrünün müxtəlif elmlərini dərindən bilən irfan sahibi idi. Ona görə də hansı janrda və yaxud formada yazmasından asılı olmayaraq sənətkar həmişə ən müəkəmməlini ortaya çıxartmağa nail olmuşdur. Şair əsərlərində təbiət lövhələrindən, ünsürlərindən müxtəlif məqsədlərlə istifadə etmişdir. İstər bahariyyələrində (baharın gəlişinin təsvirinin əksinin verildiyi şeir forması), istər şitaiyyələrində (qışın təsvirinə hərs olunan şeirlər), istərsə də xəzannamələrində (payızın təsvir olunduğu şeir forması) şair insan duyğularını, insanın əhvali-ruhiyyəsini təbiətlə müqayisədə, təbiət fonunda verməyə çalışmışdır. Bu da digər şeirləri kimi təbiət təsvirli şeirlərində də dərin elmi, dini, irfani, təsəvvüf meyillərini araşdırmağa imkan verir.*

**Açar sözlər:** poetika, lirika, təbiət, bahariyyə, şitaiyyə, xəzannamə
**Key words:** poetics, lyrics, nature, bahariyyah, shitayyah, treasure
**Ключевые слова:** поэтика, лирика, природа, бахарий, шитайя, сокровище.

## *Giriş*

XVI yüzilliyin əsl tarixi və ədəbi hadisəsi Məhəmməd Füzuli fenomenidir desək, bəlkə də mübaliğə etməmiş olarıq. Y.E.Bertelsin “müstəsna şair” adlandırdığı M.Füzuli Şərqin üç böyük dilində - Azərbaycan, fars və ərəb dillərində bir çox ədəbi janr və formalarda maraqlı, dərin məna və məzmuna malik xeyli sayda əsərlər yazmışdır. Qəzəl, qəsidə, məsnəvi, müxəmməs, rübai və s. Kimi divan ədəbiyyatının janrlarına müraciət edən sənətkar mövzu baxımından da dövr və zaman, gələcək nəsillər, elm üçün faydalı ola biləcək əsərlər yazmışdır. Sadaladığımız dillərin incəliklərinə yaxından bələd olan sənətkar hansı dildə yazmağından asılı olmayaraq çalışmışdır ki, bədii təsvir və ifadə vasitələrindən, xalqımızın zəngin folklorundan, sufizmin incə məramlarından yerli-yerində istifadə etsin. “Füzulinin bədii sənətkarlıq xüsusiyyətlərinin, şair mənliyinin tədqiqi tək bir nəfər müəllifin bədii dəsti-xəttinin və ədəbi nəfəsinin izahı ilə məhdudlaşmayıb bir çox nəzəri və təcrübi problemlərin, milli müştərək nöqtələrin, ümumi bədii icadçılığın bir sıra daxili sirlərinin şərhi işində də açar rolunu oynaya bilər. Füzuli belə geniş aspektli tədqiqat üçün material verən şairdir” [2, s.7].

Füzuli daha çox qəsidələrində təbiət lövhələrini verməyə çalışmışdır. Çünki qəsidə janrı təhkiyə üçün əlverişli janrdır. Təbiət lövhələrinin yaradanda isə sənətkar çalışır ki, gördüklərini, duyğularını, lirik qəhrəmanın hiss və həyəcanlarını geniş və ətraflı versin. Şair bunun üçün maraqlı üsul ve metodlardan istifadə edir. Belə ki, o, müraciət etdiyi təbiət ünsürlərini – gülü, ağacları, meyvələri, quşları, heyvanları, küləyi alleqorik şəkildə canlandırır, insan cəmiyyətinə xas olan xüsusiyyətləri onların üzərinə köçürməklə xəyali bir cəmiyyət yaradır. Əslində dövründə gördüyü problemlərə münasibət bildirmək istəyən bir çox şairin müraciət etdiyi forma təşxis-alleqoriyadır. Bu baxımdan Füzulinin də bu formaya üstünlük verməsi əsla təsadüfi hal sayılmamalıdır. “Füzuli yaradıcılığında alleqoriya mühüm yer tutur. Dövrünün bir sıra ictimai və siyasi hadisələrini açıqdan-açığa tənqid edə bilməyən sənətkar alleqoriyaya müraciət etməyə məcbur olub, bir neçə təmsil, alleqorik poema və

DOI:10.30546/gdu.2023.246-250

hekayə yazmışdır” [1, s. 165]. Onun bir çox xırda təmsilləri ilə yanaşı, “Bəngü badə”, “Söhbətül-əsmar”, “Yeddi cam” poemaları, “Səhhət və Mərəz” əsəri alleqorik şəkildə yazılmışdır.

**Əsas mətn.** Füzuli alleqoriyaya müraciət edəndə də özünəməxsus poetik çalarları saxlayır, təsvir və ifadə vasitələrindən geniş istifadə edirdi. Məsələn şairin “Söhbətül əsmar” poemasında yazın gəlişi, çəmənin yaşıllaşması belə təsvir olunur:

Çün məvü nüma bulub çəmənlər,
Çak etdi nəbat pirəhənlər...
... Bağ içrə açıldı qırmızı gül,
Başladı əninü nale bülbül.
Əlqissə, fəzalanıb çəmənlər,
Xoş, tazə geyindi yasəmənlər [4, s.263].

Şair baharın gəlişini sadəcə bir cümləylə verməyib, canlanan təbiəti özünəməxsus boyalarla təsvir edir. Misraları oxuduqca şairin ağacların, otların, meyvələrin, tərəvəzlərin, güllərin, quşların və s. Təbiətdəki rolundan kor-koranə bir şəkildə deyil, bir rəssam, bir alim, bir təbiətşünas, bir bioloq kimi danışdığının fərqinə varırsan.  O, hər bir təbiət məfhumunun xarakterini, keyfiyyətini qısa və lakonik cümlələrlə şərh edir.

Şairin təbiət təsvirləri statik xarakterdən, yeknəsəklikdən, durğunluqdan uzaq, daim hərəkətdə olan canlı, hərəkətli, al-əlvandır. “Söhbətül-əsmar” poemasında bağda və bostanda cərəyan edən hadisələrə şahid olan insan oradan çox böyük təəssüratla ayrılır. Gördükləri əslində insan cəmiyyətinin aynası idi. Əgər hamı böyüklük sevdasına düşsə, başqalarından üstün saysa, birlik-bərabərlik olmasa, o cəmiyyət gec-tez məhvə məhkumdur.

Füzuli yaradıcılığına xas olan ən incə məqamlardan biri də sufizmdir. Bu baxımdan şair təbiət gözəlliklərinə çox vaxt dini nöqteyi-nəzərdən yanaşır, bütün bunların Allahın qüdrəti sayəsində baş verdiyini nəzərə çarpdırır. Füzuli bütün bu gözəlliklərin insan üçün, onun güzəranı, normal yaşayışı üçün yaradıldığını vurğulayaraq, bəni-adəmi onlardan zövq almağa səsləyir.

“Çıxdı yaşıl pərdədən ərz eylədi rüsxar gül” rədifli qəsidəsində şair yazır:

Adəm isən bağ seyrin eylə bu mövsümdə kim,
Bağı rəngi buy ilə qıldı behiştasar gül.
Çarsuyi-bağ seyranı bu gün məğrubdir,
Kim, şükufə onda sərraf oldu vü əttar gül.
Çıxmış ikən bəzmi-gülşəndən yenə övd eyləyib,
Cami-mey andırdı əhli-tövbəyə təkrar gül [6, s. 44-45].

Bahar fəslində insanı bağa dəvət edən şair ona buranı cənnətə çevirən güllərdən zövq almağa səsləyir. Ətrafa gözəl ətri yayan gül hətta meyə tövbə eləmiş insana yenidən meyxanəni, badəni xatırlatmaq iqtidarındadır. Ümumiyyətlə, Füzuli külliyyatında gül, gülzar, gülşən, gülüstan sözləri minlərcə dəfə işlədilib. Şair gül sözü ilə təbiətin oyanışını, eşq, məhəbbət, aşiq və məşuqun daxili duyğularını daha qabarıq, daha canlı vermək üçün istifadə edib. Açan gül təkcə baharın deyil, həm də eşqin, məhəbbətin, sevginin, vüsalın xəbərçisidir. Solan gül isə xəzan mövsümünün, qışın, ayrılığın, iztirabın, həsrətin rəmzidir. M.Füzuli gülün öz yaraşığını bülbüldən aldığını, lakin onların qovuşmağının da müşkül iş olduğunu müxtəlif janrlarda yazdığı şeirlərində dəfələrlə vurğulayır.

Sevgilinin gözəlliyini, eşq münasibətləri, insan psixologiyasının dərin qatlarını açmaq üçün şair təbiət lövhələrini yaratmağa əl atır və bu üsul onun təbiət lirikasının ən xarakterik cəhətlərindən biridir. Məsələn, sevgilinin-məşuqənin zahiri görüntüsünündən danışarkən şair onun qəddini sərv ağacına bənzədir:

Qəddinə dedim ki, sərvi-bustandır bu!

DOI:10.30546/gdu.2023.246-250

Tünd oldu ki, ey xəstə, nə hədyandır bu.
Pabəstəvü urü bizəbandır dedigin,
Xandənü qəbapuşü xuramandır bu [3, s. 378].

Doğrudur, hər nə qədər bənddə sevgilinin qəddi sərvə bənzədilsə də, amma sərv sevgiliyə tay ola bilməz. Çünki Füzuli insanı, onun  zahiri simasını, üzündəki, gözündəki məlahətli ifadəni təbətin bütün gözəlliklərindən üstün tutur. Bənddə də sevgilini bağın sərvinə bənzətdikdən sonra, sanki aşiq-şair qəflət yuxusundan ayılıb özünü tənqid edərək belə bənzətmənin "tünd" – gərəksiz, ağır, "hədyan" – yersiz olduğunu bildirir.

Füzuli çox zaman təbiət mənzərələrini, ünsürlərini insanın sevinci, kədəri, eşqi, həsrəti ilə əlaqələndirir. Yəni təbiət sadəcə insan onun bir parçası olanda öz həqiqi mənasını tapır. İnsansız təbiət mənasız bir şeydir.

Sevgi, qovuşmaq, vüsal kimi duyğular baharın gəlişi ilə tərənnüm olunsa da, ayrılıq, həsrət, iztirab, aşiq və məşuqun ah-naləsi xəzan – payız, qış fəsli ilə əlaqələndirilir. Bu da şairin yaradıcılığına özünəməxsus canlılıq, dinamika verir. Şair Aşiqin sevgilisindən ayrılmasını, onun çəkdiyi iztirabları xəzan vurmuş bağla müqayisə edir. Məşuqə ilə birlikdə olanda ətrafda güllər açır, bülbüllər nəğmə oxuyurdusa, artıq onun gedişindən sonra bu bağda bir də gül açmaz, bülbül oxumaz:

Çəkildi sinəmə min dağ lalə tək sənsiz,
Bahari-eşqin edibdir bu güllərimi xəzan.
Müyəssər olmadı, bir sərvdən vəfa dilədim,
Yenə cəfa yaşasın, hər ümidim oldu xəzan. [5, s. 306]

Aşiq sevgilidən-sərvi boylu gözəldən vəfa diləyir, lakin Məşuqə onun bütün ümidlərini xəzan-puç edir. Onun eşqini bahara, yoxluğunu isə payıza bənzədir.

"Ta ki, taqi-zərnigarın çərxi viran eyləmiş" mətləli qəzəlində şair xəzan fəslinin təsvirini çox maraqlı boyalarla vermişdir. Şeirdə payız bülbülü qarğanın gününə salmış, çayları qurutmuş, lalə öz qırmızı paltarını daha geyinmir, bahar arxları da sanki zindan zəncirlərini xatırladır. Aləmi qaranlıq, bir kədər və küskünlük bürüyüb.

Ustadın ən böyük əsərlərindən biri, Şərqin böyük məhəbbət dastanı, anadilli şeirin əsrarəngiz nümunəsi "Leyli və Məcnun" poemasında da şair təbiət lövhələrinə iki sevən insanın ruh halını yansıtmaq üçün müraciət etmişdir. Məsələn, Leylinin ölüm səhnəsini payızın gəlişi ilə paralel təsvir edir. "Payız fəsli ilə Leyli ömrünün payızı, eşqin sonu paralel gətirilmişdir. Bu təsvirləri oxuyanda doğurdan da insanı bir kədər, qüssə, bir məyusluq sıxır. Adama elə gəlir ki, Leyli də, Məcnun da, budur, göz qabağındadır. Onların saf və təmiz məhəbbəti güclü qüvvələrin qurbanı olur" [7, s. 242].

Əsərdə marqlı cəhətlərdən biri də hər iztirab çəkən hər iki aşiqin insanlardan bir mədəd gəlməyəcəyini bildikləri üçün təbiət qüvvələrinə üz tutmaları, onlarla dərdləşmələridir. Məsələn, Leyli Aya, dəvəyə, səbaya müraciət edir, eşq odunda yanmağının, çarəsizliyinin dərmanını sanki onlardan istəyir. Məcnun səhraya üz tutur. İnsan olmayan bu isti çöllər ona daha doğma, əziz görünür. Məcnun ətrafına vəhşi, yırtıcı heyvanlar cəm olur. Qəribədir ki, sanki bu heyvanlar onun vəziyyətini bilir, ona mehr salır, yırtıcılar belə onu zərər vermirlər. Obrazlı dillə desək, "hətta başındakı yuvada quşlar bala çıxardır". Bilindiyi kimi, heyvanlar – insanlardan zərər görəcəklərini düşündükləri üçün hər vəchlə onlardan qaçırlar. Lakin Məcnun fövqəladə insan olduğunu, təpədən dırnağa ilahi eşqin əsiri olduğunu o dilsiz heyvanlar belə anlayırlar.

Şairin "Qəsideyi-şitaiyyə" (Qış haqqında qəsidə) əsəri əslində ədəbi bir hadisə kimi də maraqlıdır. Çünki Füzuliyə qədər bu şəkildə iri həcmli bir əsər yazılmamışdı. Bu Azərbaycan ədəbiyyatı tarixi üçün ilk belə hal idi. Əsəri oxuduqca qışın soyuğu, can sıxan tutqun havası insanın gözü önündə canlanır. Bütün bu mənzərə insan kədər duyğusu, küskünlük verir. Bahar

DOI:10.30546/gdu.2023.246-250

həyatın başlanğıcı, payız yaşlılıq çağlarını təmsil edirsə, qış, adətən, ölümü təmsil edir. Şair qışın təsvirinə bir az da ictimai rəng, çalar verir, dünyanın etibarsızlığı, varlığın müvəqqəti oluşundan bəhs edir. Lakin sonda da şair insanı Allahdan gələn hər şeyə qane olmağa səsləyir:

Bərgini şaxi-gül yelə vermişdi sərbəsər,
Yəni, təcəmmülünə cahanın nə etibar.
Tey qılmış idi səbzə büsatını busitan,
Yəni ki, mötəbər degil əsbabi-müstəar.
...Cüzi xəsarət ilə məlul olma, şükr qıl,
Bəg xaki-dərgahına fəda böylə səd həzar [6, s.74-77].

Şərq ədəbiyyatında təbiət təsviri ayrılıqda mühüm mövzu olmamışdı. Şairin qüdrəti eşq və məhəbbətdən yazdığı əsərləri ilə ölçülürdü. Məhəmməd Füzuli də yaradıcılığında məhz bu mövzuya toxunaraq qələminin qüdrətini bütün dünyaya sübut etdi. Lakin o, ictimai-siyasi, təbiət mövzulu əsərlər yazmaqdan çəkinmədi. Bu əsərlər onun sənətkarlıq üslubunun mühüm parçasına çevrildi. O, bu əsərləri yazmaqla da dərin rəğbət və şöhrət qazanmanın mümkünlüyünü təsdiq etdi.

### *Nəticə*

Beləliklə, elm, ədəbiyyat inkişaf edir. Müasir tərəqqi və texnologiya əsrində yaşayırıq. Lakin hansı dövrdə, hansı zamanda yaşamağımızdan asılı olmayaraq Məhəmməd Füzuli yaradıcılığının qüdrəti, onun insan qəlbini fəth edən incə üslubu həmişə aktual olacaqdır. Anadilli şeirin ən mükəmməl yaradıcılarından olan sənətkar gələcək nəslin qəlbində istər məhəbbət, istər ictiami, istərsə də təbiət mövzulu lirikası ilə taxt quracaqdır.

### *Ədəbiyyat*

1. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı: Uşaq və gənclər ədəbiyyatı, 1958, 311 s.
2. Əliyev S.X. Füzulinin poetikası. Bakı: Yazıçı, 1986, 221 s.
3. Füzuli M. Əsərləri. 6 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2005, 400 s.
4. Füzuli M. Əsərləri. 6 cilddə, II cild. Bakı: Şərq-Qərb, 2005, 336 s.
5. Füzuli M. Əsərləri. 6 cilddə, III cild. Bakı: Şərq-Qərb, 2005, 472 s.
6. Füzuli M. Əsərləri. 6 cilddə, IV cild. Bakı: Şərq-Qərb, 2005, 344 s.
7. Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı: Kaşqari, 2007, 357 s.

## ПОЭТИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ПРИРОДНОЙ ЛИРИКИ В ТВОРЧЕСТВЕ МУХАММАДА ФЮЗУЛИ

***Валиева Джейран Эльшан кызы***

### *Резюме*

Один из виднейших представителей азербайджанской классической литературы, гениальный художник Мухаммад Физули, сумевший своей поэзией более трехсот лет держать под своим влиянием нашу литературу, создал великую литературную школу, написаны загадочные черты природы. с уникальными цветами. Поэт описывал природу в разных формах в разных поэтических жанрах. Прежде всего отметим, что Физули был ученым, глубоко знавшим различные науки своего времени. Поэтому вне зависимости от жанра или формы письма художнику всегда удавалось вывести самое совершенное. В своих произведениях поэт использовал знаки и стихии природы для различных целей. Будь то в своих бахариях (форма поэзии, изображающая приход весны), шитайях (стихи, изображающие зиму) или хазаннамах (форма поэзии, описывающих осень), поэт пытался передать человеческие эмоции, человеческое настроение, в сравнении с природой, на фоне фон природы.

DOI:10.30546/gdu.2023.246-250

**POETIC CHARACTERISTICS OF NATURE LYRICS IN THE CREATION OF MUHAMMAD FÜZULI**

***Valiyeva Jeyran Elshan***

***Summary***

One of the most prominent representatives of the Azerbaijani classical literature, the genius artist Muhammad Fuzuli, who managed to keep our literature under his influence for more than three hundred years with his poetry, created a great literary school, the mysterious features of nature are written with unique colors. The poet described nature using different forms in different poetry genres. First of all, üe should note that Fuzuli was a scholar who deeply knew various sciences of his time. Therefore, regardless of the genre or form of writing, the artist has always managed to bring out the most perfect. In his works, the poet has used the signs and elements of nature for various purposes. Whether in his bahariyyah (a form of poetry depicting the arrival of spring), shitayyyah (poems depicting winter), or khazannams (poetry form describing autumn), the poet tried to convey human emotions, human mood, in comparison with nature, against the background of nature.

***Rəyçi: fil.f.d. Afət Rəfiyeva***
***Humanitar fənnlər kafedrasının 27.07.23 taixli iclası***
***Daxil olma tarixi 28 iyul 2023-cü il***